# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Qəbələ rayon sakinlərinə

# T Ə B R İ K İ

Artıq yola saldığımız 2018-ci il tarixə qovuşur. Bu il respublikamızın, eləcə də rayonumuzun hərtərəfli inkişafı üçün uğurlu, yaddaqalan il olmuş, qarşıya qoyulmuş bütün vəzifələr müvəffəqiyyətlə icra edilmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik rəhbərliyi və uzaqgörən siyasəti sayəsində həyata keçirilən geniş miqyaslı islahatlar, yeni infrastruktur layihələri, aparılan abadlıq, tikinti-quruculuq və bərpa işləri, hərtərəfli sürətli iqtisadi tərəqqi hər birimizdə fərəh və qurur hissi doğurur. İldən-ilə artan uğurlarımız, ölkəmizin sürətli inkişafı ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf xəttinin ölkə Prezidenti tərəfindən böyük məharətlə davam etdirilməsinin məntiqi nəticəsidir.

Azərbaycanda, o cümlədən Qəbələ rayonunda aparılan geniş yenidənqurma, abadlıq işləri, rayonun turizm infrastrukturunun genişləndirilməsi, iqtisadiyyatın inkişafı sahəsində görülən tədbirlər qısa müddətdə rayonun simasını tamamilə dəyişmişdir.

Bütün bunlar rayonda həyat səviyyəsinin yüksəlməsinə xidmət etməklə yanaşı, həm də rayonun əhalisinə rifah və mənəvi rahatlıq gətirir.

Beynəlxalq mədəniyyət mərkəzinə çevrilməkdə olan Qəbələnin son illər yüksək səviyyəli beynəlxalq forumlara, festivallara, rəsm sərgilərinə və idman yarışlarına ev sahibliyi etməsi rayonumuzun dünya miqyasında tanınmasını təmin edir.

Möhtərəm Prezidentimizin rayonumuza göstərdiyi qayğı və diqqət, aparılan sistemli iş, inkişafın yeni hədəflərinin müəyyən edilməsi onu deməyə əsas verir ki, 2019-cu ildə nailiyyətlərimiz daha da artacaq, respublikamızın ecazkar bölgəsi olan Qəbələ daha da abadlaşacaq, əhalinin rifah halı gündən-günə yüksələcəkdir.

Hörmətli qəbələlilər, sizə rayonumuzun sürətli sosial-iqtisadi inkişafı naminə qarşıda duran mühüm vəzifələrin həyata keçirilməsində yeni-yeni uğurlar arzulayır, sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibətilə ürəkdən təbrik edirəm. Yeni ildə hər birinizə uzun ömür, cansağlığı, xoş əhvali-ruhiyyə, əmin-amanlıq, ruzi-bərəkət və firavanlıq diləyirəm.

**Səbuhi Abdullayev,**
**Qəbələ Rayon İcra**
**Hakimiyyətinin başçısı.**

*30 dekabr 2018-ci il.*

***Dekabrın 25-də Qəbələ Rayon İcra Hakimiyyətində qış mövsümünə hazırlıq işlərinin gedişi ilə əlaqədar müəyyən edilən tədbirlərin icrası vəziyyətinə dair şura iclası keçirilib. İclasda RİH başçısı yanında şuranın üzvləri, icra nümayəndələri, bələdiyyə sədrləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, turizm obyektlərinin rəhbərləri iştirak ediblər.***

# Qışa hazırlıqla əlaqədar görülən işlər müzakirə olunub



Şura iclasını açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev qışa hazırlıq işlərinin gedişi barədə məlumat verib. Bildirilib ki, məsələ oktyabr ayında, mövsümə iki ay qalmış RİH başçısı yanında şura iclasında müzakirə olunub, bu barədə müvafiq qərar qəbul edilib. Həmçinin müəyyənləşdirilən konkret vəzifələrin, nəzərdə tutulan tədbirlərin



icrasına nəzarət etmək məqsədilə RİH-də qərargah yaradılıb. Qeyd olunub ki, həmin şura yığıncağından ötən dövr ərzində nəzərdə tutulmuş bütün məsələlər icra olunub, məktəblərdə, səhiyyə ocaqlarında, mədəni-maarif müəssisələrində və digər təşkilatlarda qış mövsümünə hazırlıq işləri başa çatdırılıb.

RİH başçısı bildirib ki, qış mövsümündə rayonun bütün sosial obyektlərində, o cümlədən təhsil, səhiyyə, mədəniyyət ocaqlarında, uşaq bağçalarında, idarə və müəssisələrdə normal istilik yaratmaq, elektrik, qaz, su və yol təsərrüfatını fasiləsiz olaraq işlək vəziyyətdə saxlamaq hər bir cavabdeh şəxsdən böyük məsuliyyət tələb edir. Qarşıdan gələn bayram və qeyri-iş günlərində xidmət təşkilatlarının öz işlərinə xüsusilə məsuliyyətlə yanaşması, yaşayış məntəqələrinin bütün kommunikasiyalarının işlək vəziyyətdə olmasının nəzarətdə saxlanılması onlara bir daha tövsiyə olunub.

İclasda rayonun xidmət təşkilatlarının rəhbərləri–regional elektrik şəbəkəsinin rəisi Musa Məmmədov, qaz istismarı sahəsinin rəisi Sübhi Bayramov, 10 saylı "Yol-istismar" MMC-nin direktoru Naməddin Qədirov, eyni zamanda təhsil şöbəsinin müdiri Arifə Bayramova, regional meşə təsərrüfatı mərkəzinin direktoru İlqar Qəribov və başqaları rəhbərlik etdikləri sahələr üzrə görülən işlərə dair ətraflı məlumat veriblər.

Yığıncaqda digər cari məsələlər barədə də əlaqədar vəzifəli şəxslərə tapşırıqlar verilib.

İclası rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırıb.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Növbəti səyyar görüş-qəbul Bum qəsəbəsində keçirilib

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti səyyar görüş-qəbulu Bum qəsəbəsində keçirilib. Görüş-qəbulda RİH başçısı aparatının, hüquq mühafizə orqanlarının, müvafiq idarə, müəssisə, təşkilat, xidmət



sahələrinin rəhbərləri və qəsəbə ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdə Səbuhi Abdullayev qəsəbə sakinlərini 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib.

RİH başçısı görüş-qəbulda Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə gedən sosial-iqtisadi inkişafdan, onun diqqət və qayğısı sayəsində regionlarda, o cümlədən Qəbələ rayonunda həyata keçirilən abadlıq-quruculuq işlərindən danışıb.



Qeyd olunub ki, rayonda onlarla yeni məktəb binaları inşa edilib, ucqar ərazilərə gedən avtomobil yolları yenidən qurulub və təmir olunub, yeni beton bəndlər, körpülər salınıb, əksər yaşayış məntəqələri qazlaşdırılıb, əhalinin dayanıqlı rabitə, elektrik enerjisi, qaz təchizatı yaxşılaşdırılıb.

Qazanılan bütün uğurların ilk növbədə dövlətimizin başçısının gərgin və səmərəli fəaliyyətinin bəhrələri olduğunu qeyd edən icra başçısı, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ölkədə həyata keçirilən layihələrdən söz açıb.

Bildirilib ki, son illərdə rayonumuzda görülən yenidənqurma işlərinin fonunda Bum qəsəbəsi də diqqətdən kənarda qalmayıb. Həmçinin qeyd olunub ki, astanasında olduğumuz 2019-cu ildə də Bum qəsəbəsində elektrik təchizatı təsərrüfatının tamamilə yeniləşdiriləcəyi, Bum-Qəbələ avtomagistralındakı su ötürücüsünün yerində biraşırımlı körpünün inşa ediləcəyi və sahilbərkitmə işləri ilə əlaqədar Bum çayında beton mühafizə bəndinin inşa olunacağı nəzərdə tutulub.

Sonra görüşdə qəsəbə sakinləri dinlənilib. Onlar Bum qəsəbəsində görülmüş abadlıq-quruculuq işlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

Çıxış edən ictimaiyyət nümayəndələri qəsəbədə tam orta məktəb binasının əsaslı təmir olunmasına, telefon xətlərinin təmir edilməsinə, ərazidə yeni subartezian quyusunun qazılmasına, Bum-Qəbələ yolunda yeni suötürücü qurğunun quraşdırılmasına köməklik göstərilməsini xahiş ediblər.

Görüşü yekunlaşdıran Səbuhi Abdullayev qəsəbə sakinləri tərəfindən qaldırılan məsələlərin araşdırılaraq tədbir görülməsi üçün aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verib.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**